

# Dünya və Avropa çempionları Avro – 2020-dən kənarda qaldılar

Avro – 2020 futbol bayramı, iki günlük fasilədən sonra çempionatın 8/1 finalının daha gərgin və maraqlı qarşılaşmaları ilə davam etdi. İyunun 26-da keçirilən ilk qarşılaşma – Danimarka-Uels matçı Azərbaycanın futbol azarkeşləri üçün də böyük maraq doğururdu, çünki bu cütün qalibi növbəti gün baş tutacaq Hollandiya – Çexiya qarşılaşmasının qalibi ilə Bakının Olimpiya stadionunda yarımfinala vəsiqə uğrunda mübarizə aparacaq.

## Danimarka Uelsə təsəlli qoluna da şans vermədi

Danimarka pley-offda Uelslə Amsterdamda "Yohan Kroyf stadum"da qarşılaşdı. Qrup mərhələsindəki oyunlardan sonra bu matçın favoriti danimarkalılar idi. Danimarkalıların Belçika millisi ilə oyununu xatırlayanlar varsa, bu qarşılaşmada Danimarka millisinin əzmkar oyununun təəssüratlarını yəqin ki, unutmayıblar. Əlbəttə, finlərlə oyunda danimarkalıların kapitanı Eriksenin başına gələn qəfil hadisə olmasa, çətin onlar Finlandiya millisinə məğlub olacaqdılar.

Qrup mərhələsində olduğu kimi, Danimarka yığma komandası ilə qarşılaşmada da Aron Remzi ilk dəqiqələrdən birinci hissənin ortalarına qədər komandasının ən fəal oyunçularından biri oldu. Britaniyalılar hətta qola da yaxın oldular. Uelslilərin lideri Qaret Beyl rəqib meydançasında yoldaşlarından ötürmə alandan sonra iki dəfə Kasper Şmeyxelin qapısına kifayət qədər təhlükəli zərbə vurdu.

Bundan dərhal sonra Danimarka millisi təşəbbüsü ələ aldı. Oyunun 27-ci dəqiqəsində danimarkalıların ən fəal oyunçularından olan Kasper Dolberq əlinə düşən fürsəti boşa vermədi: forvard cərimə meydançasına daxil olmadan möhtəşəm zərbə ilə topu qapının uzaq küncünə göndərdi. Qol, Danimarka –1, Uels – 0.

Birinci hissənin bu məqamına qədər müdafiə futbolu nümayiş etdirən Uels millisi artıq hücuma keçmək məcburiyyətində qaldı. Danimarka millisi isə çevik və konkret oyun nümayiş etdirirdi. Elə buna görə də ikinci hissə başlayandan 3 dəqiqə sonra Dolberqin ikinci qolu ilə hesab 2-0 oldu. Danimarkalıların heyətində son dərəcə fəallığı ilə diqqət çəkən müdafiəçi Mehle də zəhmətinin bəhrəsini gördü. Oyunun əsas vaxtının qurtarmasına 2 dəqiqə qalmış Mehle komandasının üçüncü qolunu vurdu. Oyunun ən sürətlilərindən olan Breytueyt isə əlavə olunmuş vaxtda fərqlənərək hesabı Uels millisi üçün rüsvayçı həddə çatdırdı – 4-0. Beləliklə, Avro – 2020-nin 4/1 final qarşılaşmasını Azərbaycanın paytaxtında keçirəcək iki komandadan biri Danimarka milli komandası oldu.



## Videoassistent sensasiyaya imkan vermədi

İyunun 26-da Avro – 2020-nin pley-offunda növbəti qarşılaşma İtaliya millisi ilə Avstriya yığma komandası arasında keçirildi. Qarşılaşmadan əvvəl də məlum idi ki, Roberto Mançinin yetirmələrinə bu matç qrup mərhələsində keçirdikləri oyunlar kimi asan olmayacaq. Oyunun elə ilk dəqiqələrindən avstriyalılar bu tezisi kəskin pressinqləri ilə təsdiqlədilər. Onlar italiyalılara rahat ötürmə alıb oyunu davam etdirməyə, baş məşqçinin taktiki göstərişlərinə dəqiq əməl etməyə bir an belə imkan vermirdilər. Birinci hissənin 15 dəqiqəsində Mançinin komandası ümumiyyətlə topu özündə saxlaya bilmirdi. Avstriyalılar çox aqressiv pressinq nümayiş etdirir və hətta qaydaları da bir neçə dəfə kobud şəkildə pozurdular.

Hətta belə bir təzyiq altında da İtaliya millisi ilk hissədə 15 dəqiqədə qapıya endirilən zərbələrin sayında rəqibi üstələyirdi: 4 –1. Ancaq ilk 15 dəqiqəlik gərginlikdən sonra oyunun xarakteri dəyişdi. Avstriya müdafiəyə çəkildi. İtaliya bir qədər hücumların sayını artırdı. Birinci hissənin ikinci yarısında onlar topa yiyələnməkdə 63 faizlə tam üstünlüyü ələ aldılar.

İkinci hissədə də italyanların topa yiyələnməkdə üstünlüyü davam etdi. Lakin avstriyalılar heç də daim müdafiədə oyunu başa vurmadılar və hətta ikinci hissənin ortasında Avro – 2020-nin sensasiyasını yazmağa yaxın oldular. Qarşılaşmanın 65-ci dəqiqəsində Arnautoviç başı ilə baxımlı bir qola imza atdı Lakin baş hakimin videoköməkçisi "Skuadra Adzurra"nı məğlubiyyətdən "xilas etdi". Avstriyalı qolu oyundankənar



vəziyyətdən vurmuşdu. Beləliklə, əsas vaxt 0-0 başa çatdı. Qalibi müəyyənləşdirmək üçün təyin olunmuş "over taym"ın 5-ci dəqiqəsində yenicə oyuna çıxmış Kieyza fərdi ustalığı sayəsində vurduğu qolla İtaliya millisini irəli çıxardı. Əlavə edilmiş vaxtın birinci hissəsinin sonunda Mançinin yenicə oyuna buraxdığı Matteo Pessini rəqibin qapısı qarşısında yaranmış qarşıqlıqdan istifadə edərək komandasının ikinci topunu qapıdan keçirdi: İtaliya – 2, Avstriya – 0.

"Over taym"ın ikinci hisəsində avstriyalılar fədakar oyunları ilə bu məğlubiyyətlə barışmaq istəmədiklərini bütün imkanlarını nümayiş etdirməklə isbat etməyə çalışdılar. Oyunun 114-cü dəqiqəsində Almaniyanın "Ştutqart" klubunda forma geyinən Saşa Kalayjiç küncədən verilən ötürməni qola çevirdi. Lakin Avstriya millisinin bundan artığına gücü çatmadı.

Həqiqətən, azarkeşlərinə əsl futbol həyəcanı və son dərəcə maraqlı anlar yaşadan əla qarşılaşma oldu. Avstriya komandası göstərdi ki, İtaliya millisi ilə mübarizə aparmaq və ona öz oyununu oynamağa imkan verməmək olar. Avstriya millisi bu qarşılaşmada həm də son 11 oyunda qapısını toxunulmaz saxlamağı bacaran İtaliya millisinin bu statistikasına son qoydu və Donnarummanı məyus edə bildi.

Əlbəttə, bu, əsas nəticəni dəyişmədi. İtaliya Avro – 2020-nin 4/1 finalına vəsiqəni təmin etdi. Bununla yanaşı, baş məşqçi Mançini bunu sələfi Vittorio Poççinin nailiyyətini üstələyərək, millisinin məğlubiyyətsizlik seriyasının yeni rekorduna imza atmaqla nail oldu. Avstriya isə turniri tərk etdi. Lakin qürurla və növbəti çempionatda daha yüksək nəticələr vəd edən bir komanda təəssüratı yaradaraq getdi.

## Çexiya Avro – 2020-nin ilk sensasiyasını yazdı

Avro –2020-nin pley-off mərhələsinin iyunun 27-də keçirilən ilk qarşılaşması Macarıstanın paytaxtı Budapeştdə keçirildi. Çexiya milli komandasının qrup mərhələsində nümayiş etdirdiyi futboldan sonra əminliklə demək olardı ki, "narınclar"a növbəti mərhələyə adlamaq elə də asan olmayacaq. Doğrudur, hollandiyalılar matçın, hətta bəzi mütəxəssislərin fikrinə görə turnirin favoriti sayılırdılar. Bizim üçün maraqlı olan isə, bu cütün hansının Bakıya Danimarka ilə qarşılaşmaya gələcəyi idi.

Qarşılaşmanın birinci hissəsi tamamilə Çexiyanın planlarına uyğun keçdi. Baş məşqçi Yaroslav Şilqava komandasının müdafiəsini çox dəqiq və ağıllı qurmuşdu. Çexiya millisi Frank de Burun komandasının qapıçıdan başlayan hücumlarını elə kəskin pressinqə məruz qoyurdular ki, Steklenburqun əksər hallarda topu rəqibin meydançasına vurmaqdan başqa çarəsi qalmırdı. Hollandiya komandasının əsas oyunçusu, kapitan Veynaldum ilk on dəqiqədə 4 ötürmədən yalnız birini ünvana çatdıra bildi. Praqmatik futbol nümayiş etdirən çexiyalılar isə öz oyunlarını oynamaqda elə də çətinlik çəkmirdilər.

Oyunda mühüm məqamlardan biri 53-cü dəqiqədə holland hücumçu Malenin fərdi driblinqlə qapıçı ilə təkbətək çıxması oldu. Holland hücumçu qapıçı Vaçliki aldada bilmədi. Bu məqamda qol vurulsa bəlkə də hər şey başqa cür ola bilərdi. Lakin futbol bəzən özünün gözlənilməz məqamları ilə azarkeşlərinə həyəcan yaşatdığı üçün bəlkə də bu qədər sevilir. O, gözlənilməz məqam isə matçın 55-ci dəqiqəsindən gəldi. Malenin məyus edən oyunundan sonra, top əks tərəfə – Patrik Şikə ötürüldü. İki il əvvəl İtaliyanın "Yuventus" klubuna 75 milyon avroya transfer edilən de Liqt Şiklə mübarizədə nə qarşısında yerə düşən topu saxlaya bildi, nə də özü ayaqda qala bildi. Yəqin hakimin rəqibin onu itələdiyini düşünüb oyunu saxlayacağını zənn edərək, holland futbolçu topu əli ilə kənara vurdu. Amma bu çox kobud bir səhv idi və rusiyalı hakim Sergey Karasyov əvvəl de Liqtə sarı, videoassisentin müdaxiləsindən sonra isə qırmızı vərəqə göstərib oyundan qovdu. De Burun komandası azlıqda qaldı və oyunun favoriti statusunu itirdi.

Qəti demək olar ki, bu epizod matçın taleyini həll etdi. Bundan dərhal sonra Şilqavanın drujinası təzyiqi artırdı və 68-ci dəqiqədə cərimə zərbəsindən verilən hava ötürməsini Tomaş Kalas başı ilə Tomaş Qoleşə atdı. O isə iki metrdən bu ötürməni asanlıqla qola çevirdi: Hollandiya – 0, Çexiya –1.

Ümumiyyətlə, hollandiyalılar azlıqda qalandan sonra onların oyun sistemi demək olar ki, pozuldu. Bu azmış kimi 80-ci dəqiqədə çexlər Patrik Şikin ikinci qolu ilə oyunun taleyini demək olar tam həll etdilər. Hollandiyalılar ikinci hissədə də qapıya bir zərbə belə vurmadan qarşılaşmanı məğlub durumda başa vurdular. Çexlar tam ədalətli qələbə qazanaraq, Bakıda keçiriləcək turnirin 4/1 matçında Danimarka millisi ilə görüşə vəsiqə qazandılar.



## Çempion Avro–2020-ni məğlub tərk etdi

Pley-offun super matçı kimi qiymətləndirilən Portuqaliya və Belçika millilərinin qarşılaşması gözlənildiyindən daha maraqlı və rəngarəng keçdi. Qrupdan 3-cü yerdə 8/1 finala yüksələn keçmiş Avropa çempionu həm titulunu qorumaq, həm də "ölüm qrupu"nda göstərdiyi aşağı nəticəni azarkeşləri qarşısında sığortalamaq üçün bütün potensialını göstərməyə hazırlaşmışdı.

Portuqaliyalılar qarşılaşmaya çox fəal başladılar. Əvvəlcə Dieqo Jota sol cinahdan hücuma atılaraq topa güclü zərbə endirdi. Top qapı çərçivəsindən kənara getdi. Yığma komandalarda vurduğu qolların sayına görə dünya rekordunu yeniləməyə can atan Kristiano Ronaldonun vurduğu effektli cərimə zərbəsini isə belçikalıların qapıçısı Tibo Kurtua dəf etdi.

"Qırmızı şeytanlar" öz fürsətlərini birinci hissənin sonunda əldə etdilər. Portuqaliyalılara elə gəlirdi ki, rəqibləri onların hücumlarından müdafiə olunmaqdan başqa bir şey düşünmürlər.




Belçikalı Tomas Mane öz cərimə meydançalarının qarşısında ələ keçirdiyi topu Torqan Azara ünvanladı. Torqan rəqibin cərimə meydançasına daxil olmadan topu qarşısıalınmaz zərbə ilə protuqaliyalıların qapısının sağ küncünə vurdu. Belçika –1, Portuqaliya –0.

İkinci hissədə də oyun bu hesabla davam etdi. Qarşılıqlı hücumlarda portuqaliyalılar daha üstün görünürdülər. Lakin heç cür hesabı bərabərləşdirə bilmədilər. Matçın sonunda Portuqaliya millisi daha böyük qüvvəylə irəli atıldı, rəqib bəzi məqamlarda geri çəkilsə də hesabı qoruyub saxlaya bildi.

Beləliklə, Belçika Torqan Azarın qolu ilə minimal qələbə qazandı. Qapıçı Tibo Kurtua bir neçə fantastik seyvi ilə portuqaliyalılara sevinməyə imkan vermədi. Avropa çempionu beləcə 4 ildən artıq qərarlaşdığı fəxri kürsüdən endirildi və Avro – 2020-də iştirakını məğlubiyyətlə başa vurdu.

## Avro – 2020-nin qol rekordlu matçı

Kopenhagen iyunun 28-də Avropa çempionatının daha möhtəşəm bir oyununa şahidlik etdi. Matç Luis Enrikenin yetirmələrinin aramsız hücumları ilə başladı. Xorvatiya millisi demək olar ki, ilk dəqiqələrdən topsuz oynayır və öz meydanına çəkilib müdafiə olunurdu. İspanların yarımmüdafiəçisi Koke qapıçı ilə təkbətək çıxıb 100 faizlik qol vəziyyətini reallaşdıra bilmədi. Xorvatlar çox çətinliklə ispanların meydanına keçə bilirdilər. Bu məqamda oyunun ən yaxşılarından olan Pedri rəqiblərin "köməyinə" gəldi. Qarşılaşmanın 20-ci dəqiqəsində heç kimin gözləmədiyi bir vəziyyətdə o topu geriyə – qapıçıya atdı. İspaniya millisi qapıçı Unay Somonun kobud səhvi üzündən kuryoz bir avtoqolla hesabda geri düşdü.

Bir neçə dəqiqədən sonra özlərinə gələn Luis Enrikenin yetirmələri yenidən rəqibin müdafiəsini lərzəyə gətirməyə başladılar. Birinci hissənin sonuna yaxın Pablo Sarabiya cərimə meydançasından qarşısıalınmaz zərbə ilə hesabda bərabərliyi təmin etdi. İkinci hissədə İspaniya millisi Sesar Azpilikueta və Ferran Torresin qolları ilə hesabı 3 –1-ə çatdırdı. Güman etmək olardı ki, Xorvatiyanın təslim olmaqdan başqa çarəsi qalmayıb. Lakin oyunun 85-ci dəqiqəsində meydana yenicə çıxan Mislav Orşiç ispanların qapısı önündə yaranmış qarışıqlıqda önünə düşən topu Unay Simonun qapısından keçirdi və hesabı 3 –2-yə endirdi. Amma bu da son olmadı və oyuna əlavə edilmiş vaxtın 2-ci dəqiqəsində Mario Paşaliç əla baş zərbəsi ilə qarşılaşmanı əlavə vaxta daşıdı.

Hər biri 15 dəqiqədən ibarət olan overtaymda İspaniya yığması yenidən birinci hissədə nümayiş etdirdiyi möhtəşəm oyununa qayıtdı. Yenicə meydana çıxan Dani Olmanın iki əla ötürməsi ilə əvvəl Alvaro Morata, 3 dəqiqə sonra isə overtaymda meydana çıxan Mikel Oyarzabal çılğın xorvatiyalı azarkeşləri sükuta qərq etdilər. Qalan vaxtda isə xorvatların oyunda yeni çevriliş etməyə nə gücü, nə də imkanları qaldı. Beləliklə, İspaniya – Xorvatiya matçı 5-3 hesabı ilə başa çatdı və hələlik Avro –2020-nin ən məhsuldar oyunu kimi tarixə düşdü.

4/1 finala yüksələn İspaniya millisinin bu mərhələdə rəqibi Fransa və İsveçrə qarşılaşmasının qalibi olacaqdı. Dünya çempionu Fransa İsveçrə ilə qarşılaşmanın favoriti sayılırdı. Lakin bu, heç demə kağız üzərində və düşüncələrdə belə imiş…

## Dünya çempionu çökdü

Qarşılaşmanın elə ilk dəqiqələrindən aydın oldu ki, İsveçrə millisi Fransanın dünya çempionu titulu qarşısında heç də geri çəkilmək, asanlıqla təslim olmaq fikrində deyil və bu oyuna yalnız qələbə üçün çıxıb. Niyə də olmasın?

Artıq qarşılaşmanın 16-cı dəqiqəsində Didye Deşamın komandası qapısında gözlənilməz qol gördü. Stiven Çuberin əla ötürməsindən sonra hamıdan yüksəyə tullanan Haris Seferoviç başla vurduğu baxımlı qol Fransanı məğlub duruma saldı. Fransızlar hesabı bərabərləşdirmək üçün aramsız hücumlara başaldılar. Kilian Mbappe və Andrie Rabyotun zərbələri hədəfə düşmürdü.

Komandalar ikinci hissəyə də bu hesabla başladılar. Dünya çempionları oyunda üstün olsalar da hücumları elə də kəsərli deyildi. Üstəlik qarşılaşmanın 55-ci dəqiqəsində fransızların qapısına 11 metrlik cərimə zərbəsi təyin edildi. İsveçrəli Oskar Rodrigesin vurduğu topa əla reaksiya göstərən qapıçı Loris komandasını ikinci qoldan xilas etdi.

Qapıçının bu fədakar oyunu sanki fransızları hərəkətə gətirdi. Bundan 8 dəqiqə sonra Fransa millisi Kərim Benzemanın qolları ilə 2 – 1 irəli çıxdı. Kərimin birinci qolu xüsusilə çox gözəl alındı və stadionu ayağa qaldırdı. İrəli çıxan fransızlar Pol Poqbanın rəqib qapısının "doqquzluğuna" vurduğu möhtəşəm qolla hesabı 3 –1-ə çatdırdılar. Amma bu sevinc sona qədər uzanmadı.

İspanlarla oyunda xorvatlara hesabı bərabərləşdirmək üçün 5 dəqiqə lazım gəlmişdisə, İsveçrə millisinin hələ 15 dəqiqəsi var idi. Oyunun 81-ci dəqiqəsində yenə Seferoviç əla baş zərbəsi ilə hesab arasındakı fərqi minimuma endirdi: 3 – 2. Doqquz dəqiqə keçmiş, vurduğu bir qolu oyundankənar vəziyyətə görə hesaba alınmayan Mario Qavranoviç kapitan Cakadan gözəl ötürmə aldı və fransızların müdafiəsindəki qarışıqlıqdan istifadə edib güclü zərbə ilə topu qapının sol küncünə göndərdi. Lorisin sıçrayışı fransızları qoldan xilas edə bilmədi və qalibi müəyyənləşdirmək üçün əlavə vaxt müəyyənləşdirildi.

Əlavə vaxtda Deşamın drujinası qola yaxın idi, lakin nə Mbappe, nə də Kərim Benzemanı əvəzləyən Olivye Jiru öz məqamlarından yararlana bildilər. Qalibi müəyyənləşdirmək üçün növbə 11 metrlik zərbələrə keçdi. İlk 9 zərbənin hamısı hədəfə dəqiq vuruldu. Növbə qarşılaşmada heç nə ilə yadda qalmayan Mbappeyə çatdı. Fransızların ulduz futbolçusunun vurduğu zərbəni Yan Sommer çevik sıçrayışla dəf etdi. Bəli, bu artıq Avro –2020-nin sensasiyasi idi. Dünya çempionu Fransa millisi çökdü. İndi İspaniya ilə 4/1 finalda İsveçrə millisi qarşı-qarşıya gələcəklər.

Dünən isə 8/1 finalın sonuncu iki qarşılaşması keçirildi. İngiltərə millisi Almaniya yığma komandasını, İsveç millisi isə Ukrayna yığma komandasını qəbul edirdi.

Həmin gün Avro – 2020-nin daha bir favoriti turnirdən kənarda qaldı. Londonun məşhur Uembli stadionunda İngiltərə millisi Rahim Sterlinq və Harri Keynin qolları ilə Almaniya yığma komandası üzərində 2 – 0 hesablı inamlı qələbə qazanaraq 4/1 finala vəsiqə qazandı. Bu haqda hesabatı növbəti sayımızda dərc edəcəyik.

*İlqar RÜSTƏMOV, "Xalq qəzeti"*